DOI: http://www.doi.org/10.36719/2663-4619/66/213-216

**Nəzrin Elmar qızı Şahbazlı**
Bakı Dövlət Universiteti
magistrant
nazrinshahbazli@mail.ru

# DOPİNQ MADDƏLƏRİNDƏN İSTİFADƏ ZAMANI YARANAN PROBLEMLƏR VƏ HƏLL YOLLARI

***Açar sözlər:*** *dopinq istifadəsi, zərərli tərəflər, mövcud problemlər,dopinq nəzarəti, idman etikası*

## Problems and solutions occurred for using doping substances

**Summary**

Doping is now a global problem that follows international sporting events worldwide. International sports federations, led by the International Olympic Committee and World Anti-Doping Agency have for the past half century attempted to stop the spread of this problem, with little effect. It was expected that, with educational programs, testing, and supportive medical treatment, this substance-abusing behavior would decrease. Unfortunately, this has not been the case. In fact, new, more powerful and undetectable doping techniques and substances are now abused by professional athletes, while sophisticated networks of distribution have developed. Professional athletes are often the role models of adolescent and young adult populations, who often mimic their behaviors, including the abuse of drugs. This review of doping within international sports is to inform the international psychiatric community and addiction treatment professionals of the historical basis of doping in sport and its spread to vulnerable athletic and non-athletic populations.

***Keywords:*** *doping, harmful aspects, existing problems, control of doping, ethics of sports*

## Giriş

İdmançılar bəzən cəmiyyətdə və idman ictimaiyyətində müəyyən bir mövqe tutmaq üçün performansı artıran maddələrə və metodlara (dopinq) müraciət edirlər. Dopinq nəzarəti testlərində qadağan olunmuş maddələrin aşkarlanması və bu hadisələrin mətbuatda əks olunmaması insanların idmandan düzgün istifadə etməsinə mənfi təsir göstərir. Bu vəziyyət həm beynəlxalq səviyyədə, həm milli səviyyədə ölkələri, həm də idman sənayesini də ciddi sarahat edir.

YUNESCO dünyada dopinqlə mübarizədə öz mövqeyini gücləndirmişdir. Dünyanın dopinqlə mübarizəni gücləndirmək üçün dövlətləri əhatə edən bir qanuni bazaya ehtiyacı var. YUNESCO-nun əsas məqsədi də elə budur. 19 Oktyabr 2005-ci ildə YUNESCO tərəfindən “İdmanda Dopinqə qarşı Beynəlxalq Konvensiya“ qüvvəyə mindi. Konvensiya dünya ölkələrini dopinqlə qanuni mübarizə aparmağa məcbur edən bir sənəddir. Sənədi imzalayanlara:

- Qadağan olunmuş maddələrdən istifadənin məhdudlaşdırılması və satışının qarşısını almaq;
- Dopinq nəzarəti və milli test proqramlarının hazırlanması;
- Antidopinq qaydalarını pozan idmançılara və tərəfdarlarına maddi yardımın azaldılması;
- Qida istehsalçılarına məhsullarında qadağan olunmuş maddələr ola biləcəyi barədə xəbərdarlıq etmək;
- İdmançıları və idmanla məşqul olan ictimaiyyəti dopinqlə mübarizəyə səsləməyi tövsiyə edir.

5 Mart 2003-cü il tarixində Kopenhagendə Dünya İdman Dopinq Konfransında Dünya Antidopinq Agentliyi tərəfindən qəbul edilmiş Dünya Antidopinq Qanununa, habelə davamlı araşdırmalara ehtiyac duyulduğuna görə Kopenhagen İdmanda Dopinqlə Mübarizə Bəyannaməsini qəbul etmişdir. Bəyənnaməyə əsasən dopinqin aşkarlanması metodlarının təkmilləşdirilməsi və profilaktika strategiyasının maksimum səmərəliliyinin təmin edilməsi, həmçinin dopinqin qarşısının alınması üçün istifadəsinə təsir edən amillərin öyrənilməsinin genişləndirilməsi zərurətini nəzərə alaraq bütün cəmiyyətin davamlı təliminin vacibliyini nəzərə alaraq, idmana cavabdeh olan dövlət qurumları və təşkilatlar idmanda dopinqin qarşısının alınması və ona qarşı mübarizənin, xüsusən idman tədbirlərinin ədalətli oyun və sağlamlıq prinsiplərinə uyğun aparılmasını təmin etməli, əlavə təhlükəsizlik funksiyalarını yerinə yetirməlidir [2].

### Dopinqdən istifadə səbəbləri

İdmançıların dopinqdən istifadə etmələrinin səbəbləri müxtəlif ədəbiyyatlarda fərqli olsa da, ümumi bir zəmində demək olar ki, eynidir. Dopinq istifadəsinin məqsədlərindən biri qabiliyyətləri süni şəkildə dəyişdirmək və ya artırmaq üçün bir maddə və ya metoddan istifadə etmək yaxud qadağan edilmiş maddənin

istifadəsini gizlətməkdir. Bunu milli və ya beynəlxalq idman yarışlarında və ya nümayişlərdə etmək dopinqin başlıca məqsədlərindəndir [2].

Buna görə idmançıların qadağan olunmuş maddələrin istifadəsi eyni zamanda onların dopinq atleti kimi mühakimə olunmasına və cinayət məsuliyyətinə cəlb olunmasına səbəb olur. İdmançıların qadağan edilmiş maddədən istifadəsi bir çox fərqli səbəblərdən qaynaqlanır. Özünü reklam etmək, valideynlərinin, məşqçilərinin və daha geniş cəmiyyətin təsiri, məşhur və zəngin olmaq və idman performasını yaxşılaşdırmaq kimi müxtəlif təzyiqlərə boyun əymək kimi nümunələr qadağan olunmuş maddə istifadəsinin səbəblərindəndir.

İdmançılar yarışa çıxmazdan qabaq dopinqdən daha çox istifadə edə bilərlər. Dəyərli mükafatlar, idmançıların performanslarını artırmağı tələb edərək, qadağan olunmuş maddələrdən (dopinq) istifadə etmələrinə səbəb olur. Dopinq istifadəsinin qarşısını almaq üçün Azərbaycan Milli Antidopinq Agentliyi tərəfindən qəbul edilmiş Qaydalarda hansı halların antidopinq qayda pozuntuları ola biləcəyi göstərilmişdir:

1. İdmancının numunəsində qadagan edilmis maddə və ya onun metabolitləri və ya markerlərinin movcudlugu
2. İdmancı tərəfindən qadagan edilmis maddə və ya qadagan edilmis usuldan istifadə və ya istifadə cəhdi
3. İdmancı tərəfindən numunə toplanmasından yayınma, imtina və ya numunəni təqdim etməmək
4. İdmancı və ya digər səxs tərəfindən dopinq nəzarətinin hər hansı bir hissə dırılması və ya saxtalasdırma cəhdi
5. İdmancı və ya digər səxs tərəfindən qadagan edilmis maddəyə və ya qadagan edilmis usula sahiblik
6. İdmançı və ya digər şəxs tərəfindən hər hansı qadağan edilmiş maddə və ya qadağan edilmiş üsulun dövriyyəsi və ya dövriyyəsinə cəhd
7. İdmançı və ya digər şəxs tərəfindən yarış müddətində hər hansı idmançıya hər hansı qadağan edilmiş maddə və ya qadağan edilmiş üsulun tətbiq edilməsi və ya tətbiq etmə cəhdi və ya yarışdan kənar müddətdə hər hansı idmançıya yarışdan kənar müddətdə qadağan edilmiş hər hansı qadağan edilmiş maddə və ya hər hansı qadağan edilmiş üsulun tətbiq edilməsi və ya tətbiq etmə cəhdi
8. İdmançı və ya digər şəxs tərəfindən əlbirlik və ya əlbirlik cəhdi
9. Səlahiyyətli qurumların məlumatlandırılmasına idmançı və ya digər şəxs tərəfindən maneəçilik və ya buna görə qisas xarakterli əməllər

**Fiziki qüsurlu idmandılar və dopinq**

Fiziki kusurlu idmançılar yarışlarda dopinqdən istifadə edə bilərlər. Dəyərli mükafatlar, fiziki kusurlu idmançıların performanslarını artırmağı tələb edərək, qadağan olunmuş maddələrdən (dopinq) istifadə etmələrinə səbəb olur. Məsələn, Almayada idmançıların çoxu dopinq səbəbindən 2015-ci ildə aldıqları medalları qaytarmaq məcburiyyətində qaldı. 2013, 2014 və 2015-ci illər arasında dopinq dən istifadə etməsi aşkarlanan fiziki kusurlu idmançıların sayı bir-birinə yaxındır [9, s. 27]. Dünya Antidopinq Agentliyi (WADA) tərəfindən yayımlanan dopinq idmançılarının sayı, dopinq probleminin əlil idmançılar arasında vurğulanması zəruri olan bir məsələ olduğunu göstərir.

**Dopinqlə bağlı təlimin əhəmiyyəti**

Effektiv təlimin dopinq istifadəsindəki tendensiyaları azaldacağı düşünülür. Çünki, təlimin verdiyi məlumatlar idmançıların daha səmərəli nəticələr əldə etmə və özlərini inkişaf etdirmələri üçün zəmin hazırladığı bilinir. Təlimin idman performansı üzərində əhəmiyyətli təsiri var. Bu mövzuda araşdırılan ədəbiyyatlar, təlimin performansın artmasını təmin etdiyini təsdiqləyir. İştirakçıların Təlimin əhəmiyyəti” mövzusundakı fikirləri ədəbiyyat araşdırmalarıyla üst - üstə düşür. İştirakçıların əksəriyyəti göstəricilərini kifayət qədər hesab etdiklərini, dopinq istifadə etməkdənsə təlimlə özlərini inkişaf etdirməyə üstünlük verdiklərini bildirirlər. Həmçinin onlar təlimin performans və motivasiya üçün əhəmiyyətli bir meyar olduğunu və dopinqin performans xüsusiyyətləri ilə əlaqəli olduğunu bildirirlər. Bu çərçivədə ədəbiyyatda oxşar fikirlər mövcuddur. Məsələn, Ghobain araşdırmasına görə (2017) ölkədəki səlahiyyətli qurum olan Səudiyyə Ərəbistanın Dopinglə Mübarizə Komissiyası tərəfindən hər il dərc olunan hesabat göstəricilərinin yüksək olduğu, anaboliklər və stimulyatorların 1% ilə 6,6% arasında olduğu bildirilir. Anaboliksteroidlər idmançıların əzələ tutumunu artıran və gücləndirən maddələr olaraq bilinir.

Ölkəmizdə dopinqlə bağlı təlimlər isə Azərbaycan Milli Antidopinq Agentliyinin (AMADA) tərəfindən təşkil olunan Təmiz qal!” sosial maarifləndirmə kampaniyası ilə keçirilir. Təmiz qal!” maarifləndirmə kampaniyasının məqsədi idmanın ədalətli yarışma, hörmət, komanda işi, cəsarət, sadiqlik və dostluq kimi dəyərləri, etikası və ruhuna dair məlumatlandırmaq və ilhamlandırmaqdır. AMADA-nın Təşviq və Təlim Proqramları idman tədbirlərinə təqdim olunur və Ümumdünya Antidopinq Agentliyinin İdmançı Təşviq və Təlim Modelinə əsaslanır. Proqram böyük idman tədbirlərində baş tutur və idmançıları antidopinq məlumatı ilə təmin edir. İştirakçılar Play True viktorinası kimi tədbirlərdə iştirak edə, antidopinq proqramının əsas aspektlərinə dair məlumat əldə edə bilərlər. Həmçinin, idmançı antidopinq sahəsində hüquqlarının qorunmasının hansı dərəcədə təmin edilməsinin araşdırılması məqsədi ilə Azərbaycan Milli Antidopinq Agentliyi (AMADA) tərəfindən hazırlanmış beynəlxalq layihənin icrasına bu ildən başlanılıb və Antidopinq sahəsində idmançıların hüquqlarının

təmin edilməsi üzrə ilk beynəlxalq irimiqyaslı araşdırma layihəsi hesab oluna bilər. Layihə Avropa, Asiya, Amerika, Afrika qitələrindən və Okeaniyadan olan 60-dan çox Milli Antidopinq Təşkilatlarını əhatə edir. Qeyd edək ki, idmançıların hüquqların qorunmasına AMADA hər zaman diqqət yetirir və bu sahədə müxtəlif addımlar atılır. Belə ki, 2019-cu ildən etibarən AMADA-da pro bono (ödənişsiz) əsasında hüquqi yardım proqramı təsdiq edilib. Proqram çərçivəsində antidopinq qayda pozuntusunu törətməkdə təqsirləndirilən idmançılar intizam və apellyasiya icraatlarında hüquq şirkətlərinin nümayəndələri tərəfindən müdafiə və təmsil olunurlar. Bu müsbət təcrübə digər ölkələrin milli antidopinq təşkilatlarına da tövsiyə olunub.

**İdman etikası**

Ədəbiyyatlarda idman etikası, idmançıların bərabərliyi, idmançıların hüquqları və idman yarışları qaydaları haqqında bir çox araşdırma var. İdman yarışları bərabər şərtlər altında aparılmalı olsa da, dopinq bu bərabərliyi pozur [9, s. 32]. Türk tədqiqatçısı N. Özbəkə görə, idmanda dopinqin qarşısını almağın yolu etik prinsiplərə riayət etməkdir. İştirakçıların fikirlərinə görə, idmançıların dopinq istifadə etməzdən əvvəl bələdçilərlə empatiya qurmaları lazımdır. Bu səbəbdən empatiya iştirakçılar üçün böyük əhəmiyyətə malikdir. İştirakçıların empati göstərməyən idmançıları həssas və qeyri – səmimi kimi təsvir etdiklərini nəzərə alsaq, idmançıların empatiyasının dopinq daxil olmaqla idmandakı bir çox mənfi halların qarşısını alacağı düşünülür. Alman tədqiqatçılarına gör
Davranışa münasibət” bir davranışın yaxşı və ya pis olaraq qiymətləndirilməsidir. Yəni burada üçüncü seçim yoxdur.

**Qida əlavələri**

Qida əlavələri yalnız həkim tərəfindən təyin edildikdə və ya səhiyyə mütəxəssisləri tərəfindən tövsiyə edildikdə istifadə olunmalıdır, lakin bu məhsullardan istifadə edilməsinə qərar verildiyi təqdirdə onların istifadəsinə xüsusi diqqət yetirilməlidir. Qida əlavələri əslində zərərsiz kimi bilinsə də, əslində onların da tərkibində müəyyən qədər dopinq maddəsi olur. Bu səbəbdən bu cür əlavələrdən istifadə zamanı mütləq şəkildə onların istifadə qaydası, tərkibi diqqətlə nəzərdən keçirilməlidir[12].

**Dopinqin qarşısının alınmasıyla bağlı sorğu nəticəsindən nümunə**

Bu mövzuda səsləndirilən fikirlərə görə bütün iştirakçılar Dopinqin qarşısının alınması” haqqında eyni bir fikir sahibdirlər və onlar bəzi sanksiya və tətbiqetmələrə dair təkliflərini irəli sürdülər.

İştirakçılardan biri olan idmançı Q.Aylin bu mövzu ilə bağlı fikirlərini bu cür bildirdi: Dərman qəbul edərkən hər zaman araşdırma aparıram. Qadağan olunmuş maddələr haqqında internetdə xüsusilə insaların yazılı şərhlərini oxuyuram.

Belə ki, istənilən proteini belə qəbul etməzdən əvvəl mövzu ilə bağlı araşdırma aparıb kömək almağın vacib olduğunu düşünürəm”.

Dopinqin qarşısının alınması” təkbaşına həll edilməsi lazım olan ən vacib məsələlərdən biridir və ətraflı sanksiyalar və əməkdaşlıq tələb edir. Antidopinq metodlarının və siyasətlərinin yaradılması və tətbiqi dopinqin qarşısının alınması baxımından çox vacibdir. İdmançılar antidopinq barədə nə qədər məlumatlı olsalar, onların dopinqə qarşı münasibətləri o qədər mənfi olar.

Dopinqin qarşısının alınmasının sosial problem olduğu və yalnız idmançılar üçün aktual problem olmadığı düşünülür. Bu bir qlobal problemdir və bu səbəbdən ölkələrdəki müvafiq qurumlar və vahidlər (nazirliklər, federasiyalar, idman klubları və s.) arasında əməkdaşlıq olduqca vacib hesab edilir. Fiziki qüsurlu idmançılar üçün dopinqin qarşısının alınması barədə sosial şəbəkələr vasitəsilə məlumat verilə bilər.

Dopinq istifadəsi idmanın əsas prinsipləri, idealizm və olimpizm fəlsəfəsinin dəyərləri ilə ziddiyyət təşkil edir. Beynəlxalq Olimpiya Komitəsinin yarım əsrdən artıq bir müddətdə bu fenomenə qarşı mübarizə apardığı və 1999-cu ildə, xüsusilə dopinqlə mübarizə aparmaq üçün hazırlanmış xüsusi bir beynəlxalq təşkilat olan Dünya Antidopinq Agentliyinin (WADA) yaradılmasına təşəbbüs göstərməsi tamamilə olduqca məqsədəuyğun seçimdir. Ümümdünya Antidopinq Agentliyin illərdir davam edən səyləri, daim artan hüquqi, maliyyə imkanları ilə yanaşı, əsas sənədlərin davamlı təkmilləşdirilməsi və yenidən nəzərdən keçirilməsi, aktiv məlumat və təbliğat işləri, sanksiyaların genişləndirilməsi və sərtləşdirilməsi məsələsini həll etməklə kifayətlənməyib.

Məsələyə BMT, UNESCO, Avropa Şurası, bir çox ölkələrin qanunverici və hökumət orqanlarının rəhbərləri və yüksək vəzifəli nümayəndələri cəlb edilmişdir. Mediada dopinq qalmaqalları olimpiadaların etibarlılığına və populyarlığına mənfi təsir göstərir və olimpiya oyunlarını hazırda aktual problem olan və geniş yayılmış saxtakarlıq və korrupsiya ilə əlaqələndirərək idman hadisələrini kölgədə qoyur. Dopinqin kariyeraya vurduğu zərərin ən bariz nümunəsi kimi məşhur tennisçi Mariya Şarapovanı qeyd edə bilərik. O, Beynəlxalq Tennis Federasiyası tərəfindən keçirilməsi məcbur olan dopinq testindən 2016-cı ildə keçdikdən sonra, bədənində meldonium maddəsi aşkar olunmuş və antidopinq qaydalarını pozduğuna görə həmin ilin martında keçiriləcək yarışlardan məhrum edilmişdir. Lakin, o bu maddəni ürək xəstəliyi olduğu üçün həkim tərəfindən yazıldığını və 10 ilə yaxın müddətdə məcbur, sağlamlıq üçün qəbul etdiyi və 2016-cı il 22 dekabr Antidopinq məcəlləsində edilən dəyişikliyə qədər bu maddənin dopinq maddəsi kimi qeyd edilmədiyini və məlumatsız olduğunu qeyd

etmişdir.Daha sonra isə,Şarapova 2 illik tennis kariyerasından uzaqlaşdırılma qərarı alınmışdır. Göründüyü kimi dopinq idmançının karyerasına və imicinə ciddi zərər vurmaq gücünə malikdir.

## Nəticə

Nəticə etibarıyla, dopinq istifadəsi iştirakçılar üçün zərərli olmaqla yanaşı, oyunun əxlaqına-etikasına ziddir. Haqsız rəqabətlə keçirilən oyunlar və qalibiyyətlər, dopinq maddələrindən və üsullarından istifadə edən idmançılar üçün nə qədər yaxşı nəticə versə də, birmənalı olaraq həm milli səviyyədə, həm də beynəlxalq səviyyədə keçirilən oyunlara inamı azaldır və onların dürüstlüyünü sual altına qoyur. Yuxarıda da qeyd edildiyi kimi, "İdman etikası" mövzusu altında qoyulan fikirlər, dopinqin idman etikası ilə sıx əlaqəli olduğunu sübut edir.

Dopinqlə mübarizədə dopinqə münasibətin erkən mərhələdə qurulması və möhkəmləndirilməsi üçün təkcə repressiv deyil, eyni zamanda ilkin profilaktik tədbirlərin də görülməsi tələb olunur. Xüsusilə idmançılar üçün hazırlanmış məlumat materialları çox az bilinir. Keçirilən sorğularda idmançıların yalnız 24,6% -i, xüsusən dünya şəbəkəsində (% 42,1) fəal şəkildə məlumat əldə etməyə çalışırlar. İdmançılar özləri üçün deyil, həm də məşqçilər və həkimlər üçün artan maarifləndirmə tədbirləri ilə bağlı bir işə tədbirə ehtiyac olduğunu düşünürlər. Cavab verən idmançıların 1,9% -i dopinq maddələrindən sui-istifadə etdiklərini etiraf edirlər[12].

Nəticələr dopinqlə mübarizədə ciddi tədbirlərin görüləməsinin vacibliyini vurğulayır. Bu səbəbdən, dopinq kursları keçirilərkən məlumatverici internet platformalarının yanında dopinqlə bağlı aktiv müzakirələr idmançılar və məşqçilər üçün olduqca məqsədəuyğundur.

Araşdırmada qeydə alınan fərqli fikirlər dopinqlə bağlı idmançılar arasında informasiya yetərsizliyindən xəbər verir. Bu məqamda yeniyetmələr özbaşına bu cür dopinqlərdən istifadə edərək erkən yaşlarda hormonal pozuntular səbəbiylə ciddi xəstəliklər keçirə, sağlamlıqla bağlı problemlər yaşaya bilərlər. Bu halda həm valideyinlər, həm də idman təlimçiləri məlumatlı olmaqla onlara bu cür maddələrdən istifadənin zərərləri barədə ətraflı məlumat verilməlidir.

## References

1. World Anti-Doping Code
2. International Convention against Doping in Sport
3. Law of the Republic of Azerbaijan on combating the use of doping substances and methods in sports
4. Rules of the Azerbaijan National Anti-Doping Agency
5. Law of the Republic of Azerbaijan on Physical Culture and Sports
6. Andy M. (2014). Genetically Modified Athletes–Biomedical Ethics, Gene Doping, And Sport. Routledge, London, 444 p.
7. Ajzen I. (2011). The theory of planned behavior. Organization behavior And Human Decision Processes 50, 211 p.
8. Angela J. Theodore F. (2006). Gene doping in sports: the science and ethics of genetically modified athletes. Adv Genet, 311 p.
9. Ashcroft, R.E, Dawson, A., Draper, H. & Mcmillan, J.R. (2007). Eds. Ethics of performance enhancement in sport: drugs and gene doping. 2nd ed. New York: John Wiley & Sons Ltd. 511-519 p.
10. Dinçer, N. Determining the knowledge level of elite athletes about doping. Selçuk University, Institute of Health Sciences, Master's thesis, 138, Konya, (Assist. Prof. Hayri Demir). 344 p.
11. Egesoy, H., Gümüşdağ, H., & Kartal, A. (2013). Gene doping and sporting performance. Hitit University Institute of Social Sciences Journal; 6: 71-85 p.
12. Eröz, M.F. (2017). Determining the Opinions and Knowledge Levels of Athletes Performing Athletics, Wrestling, Judo and Weightlifting on Doping and Ergogenic Assistance at the National Level. Institute of Social Sciences, Master's thesis, 244 pages, Kütahya, (Assist. Prof. Çetin Özdilek). 211 p.

**Rəyçi: m. F.Haqverdiyev**

Göndərilib: 29.03.2021 Qəbul edilib: 01.04.2021